Epidemiologiya

1) Difteriya zamanı antitoksik immuniteti təyin etmək üçün hansı sınaq qoyulur ?

A) Pirke sınağı

B) Mantu sınağı

C) Şik sınağı

D) Bürne sınağı

E) Dik sınağı

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

2) Şaquli (vertikal) yoluxma mexanizmi nə zaman mümkündur?

A) Eşerixioz zamanı

B) Tulyaremiya zamanı

C) İİV-infeksiya zamanı

D) Dizenteriya zamanı

E) Göyöskürək zamanı

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

snsk.az

3) Sadalanan yoluxucu xəstəliklərdən hansında dəri-allergik üsudan istifadə olunur ?

A) Stafilokok infeksiyası

B) Sifilis

C) Vəba

D) Qarın yatalağı

E) Tulyaremiya

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

4) Hansı xəstəlikdə Askoli reaksiyası antigenin tapılması üçün istifadə olunur?

A) Qarayara

B) Taun

C) Brüselyoz

D) Qarın yatalağı

E) Tulyaremiya

snsk.az

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

5) Karantin infeksiyası hansıdır?

A) Qrip

B) Dabaq

C) Vəba

D) Malyariya

E) Quduzluq

Ədəbiyyat: Tağızadə T.Ə., Abuşov F.A., Ağayev İ.Ə.Epidemiologiyadan təcrubə məşğələlərinə dair metodiki tövsiyələr. Bakı, 1984

6) Brüselyoz xəstəliyində əsas müdafiə rolunu nə oynayır?

A) Steril immunitet

B) Yerli immunitet

C) Humoral immunitet

D) Hüceyrə immuniteti

snsk.az

E) Vaksinoprofilaktika

Ədəbiyyat: Ющук Н.Д. Эпидемиология. Москва, 1993

7) Botulizmin yaranmasında ən çox rast gələn səbəblər içərisində evdə hazırlanmış hansı konserv məhsullarının qidada istifadəsidir ?

A) Konservləşdirilmiş göbələklər

B) Kolbasa

C) Kompot

D) Meyvə, şirələr

E) Ət (donuz budu)

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

8**) Salmonellalarla çirklənmiş mal ətinin çiy ikən realizasiyası yolları hansılardır?**

A) Sümük unu üçün emal edilir

B) İctimai iaşə müəssisələrinə birinci yeməklərin hazırlanması üçün göndərilir

C) Məhv edilir

snsk.az

D) Kolbasa üçün emal edilir

E) Satışa göndərilir

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

9) Botulotoksinin qida məhsulların toplanması üçün hansı şərait lazımdır?

A) Aşağı temperatur

B) Yüksək temperatur

C) Neytral mühit

D) Oksigenin olmaması

E) Turş mühit

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

10) Dizenteriya alovlanmaları daha çox hansı qida məhsullarının istifadəsi ilə bağlıdır?

A) Süd məhsulları

snsk.az

B) İçkilər

C) Tort və pirojnalar

D) Kolbasa

E) Tərəvəzlər

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

11) Hepatit A virusunun ən massiv ifraz olunması hansı dövrdə baş verir?

A) Prodromal dövrdə

B) Sarılıq dövründə

C) Rekonvalessensiya dövründə

D) İnkubasiya dövründə

E) İnkubasiya dövrünün əvvəlində

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

12) Hospitallaşdırılmış dizenteriyalı xəstədə nəcisin bakterioloji müayinəsi zamanı ilk 2 nümunədə Zonne şigellaları, sonrakı 3-cü nümunədə isə Fleksner şigellaları aşkar edilmişdir. Nə baş vermişdir?

snsk.az

A) Xəstəxanadaxili yoluxma

B) Reinfeksiya

C) Residiv

D) Laboratoriyanın səhvi

E) Törədicinin təkamülü

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

13) Dizenteriyalı xəstədə bakterioloji müayinə olunmalı material hansıdır?

A) Öd

B) Qan

C) Mədənin yuyuntu suları

D) Sidik

E) Nəcis

Ədəbiyyat: Беляков В.Д., Яфаев Р.Х. Эпидемиология. Москва, 1989

14) Botulizm nə zaman yara infeksiyası ola bilər?

snsk.az

A) Cərrahi əməliyyat zamanı aseptika və antiseptika qaydalarını pozduqda

B) Qansoran həşərat dişlədikdə

C) Gəmiricilər dişlədikdə

D) İrinli infeksiya zamanı

E) Yara torpaqla çirkləndikdə

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

15) Vərəm ocağında cari dezinfeksiyanı evdə kim həyata keçirir?

A) Vərəm əleyhinə idarənin sahə tibb heyəti

B) Sahə tibb bacısı

C) Vərəməleyhinə idarənin dezinfektoru

D) Xəstələrə qulluq edən ailə üzvələri

E) Dezinfeksiya mərkəzinin dezinfektoru

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

snsk.az

16) Hansı müayinəyə əsasən qarın yatalağının «tranzitor törədicigəzdirənliyi»ndən şübhələnmək lazımdır?

A) Koprokultura

B) Urinokultura

C) Mielokultura

D) Hemokultura

E) Bilikultura

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

17) Təmasla yoluxma zamanı tulyaremiyanın hansı forması inkişaf edir?

A) Ağciyər

B) Angioz-bubon

C) Göz-bubon

D) Bubon

E) Abdominal

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

snsk.az

18) Brüselyozun mövsümi yüksəlişi nə ilə bağlıdır?

A) Ov mövsümünün başlanması ilə

B) Yağışlar mövsümü ilə

C) Kənd təsərrüfatı heyvanlarının balalaması ilə

D) Tərəvəzlərin yığılma mövsümünün başlanması ilə

E) Heyvanların kütləvi ölməsi ilə

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

19) Leptospirozlu xəstə heyvanların südünü qidada hansı halda istifadə etmək olar?

A) Qaynatdıqdan sonra istifadə etmək olar

B) Qida bloklarında istifadə etmək olar

C) Məhdudiyyətsiz istifadə etmək olar

D) İstifadə etmək olmaz

E) Pendir hazırlamaq üçün istifadə etmək olar

snsk.az

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

20) Cərrahi stasionarlarda eşerixioz etiologiyalı xəstəliklərin infeksiya mənbəyi ilk növbədə nə sayılır?

A) Ətraf mühit obyektləri

B) İrinli-septiki infeksiyalı xəstələr

C) Şöbənin xarici mühiti

D) Abiotik mühit

E) Qida məhsulları

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

21) Cərrahi stasionarlarda göy-yaşıl irin çöpü infeksiyasının mümkün yoluxma yolu hansıdır?

A) Fekal-oral

B) Hava-damcı

C) Su

snsk.az

D) Qida

E) Təmas

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

22) Hansı törədicilərlə yoluxduqda irinli-septiki hospital infeksiyasında ətraf mühit rezervuar kimi iştirak edə bilər?

A) Qızılca virusu ilə

B) Korinobakteriyalarla

C) Plazmodiumlarla

D) Brusellalarla

E) Psevdomonadlarla

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

23) Hospital irinli-septiki infeksiyaların ikincili əlaməti hansıdır?

A) Cərrahi müdaxilənin mürəkkəbliyi

snsk.az

B) Xəstənin yaşı

C) Yaranın əməliyyatdan sonra ikincili sağalması

D) Əməliyyatdan sonrakı erkən dövrdə qanaxma

E) Xəstənin sənəti

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

24) Tibbi prosedurların aparılması nəticəsində baş verən infeksiyalar necə adlanır?

A) Yatrogen

B) Mikst-infeksiyalar

C) Superinfeksiya

D) Opportunist

E) Reinfeksiya

Ədəbiyyat: Tağızadə T.Ə. İzahlı epidemiologiya terminləri lüğəti. «Elm» nəhriyyatı, 1990

snsk.az

25) Enteroinvaziv E.coli ilə törədilən eşerixiozlar zamanı daha çox nə zədələnir?

A) Düz bağırsaq

B) Yoğun bağırsağın distal hissəsi

C) Nazik bağırsaq

D) Qaraciyər

E) Uretra

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

26) İrinli-septiki infeksiya ilə yoluxma ən çox harada baş verir?

A) Əməliyyat otağında

B) İnfeksion kabinetdə

C) Poliklinikada

D) Palatada

E) Stomatoloji kabinetdə

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

snsk.az

27) Rotavirus infeksiyası zamanı nəcis necə xarakterizə olunur?

A) Yaşıl, bataqlıq rəngli

B) Qəhvəyi, formalaşmış, qarışıqsız

C) Çoxkütləli,qara rəngli,qanla qarışıq

D) Çox kütləli, pis qoxulu, köpüklü, sarı-yaşılımtıl və ya tutqun-ağ rəngli

E) Az miqdar selikli və qanla qarışıq

Ədəbiyyat: Шляхов Э.Н. Практическая эпидемиология. Кишинев, 1983

28) Qarın yatalağının qida alovlanmaları üçün hansı əlamət səciyyəvidir?

A) Dezinfektantların onlara təsir etməməsi

B) Qarın yatalağının alovlanmasından əvvəl digər kəskin bağırsaq infeksiyaları ilə xəstələnmənin yüksəlməsi

C) Mikrobların kulturalarında müxtəlif faqotiplərin aşkar edilməsi

D) Alovlanmaların əsasən endemik ərazilərdə baş verməsi

E) Alovlanmanın davam etmə müddəti bir inkubasiya dövrünün maksimal müddəti ərzində sürür

snsk.az

Ədəbiyyat: Ющук Н.Д. Эпидемиология. Москва, 1993

29) Təbii ocaqlarda tulyaremiyadan fərdi qorunmanın əsas vasitəsi hansıdır?

A) Kamera dezinfeksiyası

B) Ağcaqanadəleyhinə qoruyucu torlar və kostyumların işlədilməsi

C) Antibiotiklərin işlədilməsi

D) Repellentlərin tətbiqi

E) Vaksinoprofilaktika

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

30) Tulyaremiya zamanı vaksinoprofilaktika nə ilə həyata keçirilir?

A) Anatoksinlə

B) Bakteriofaqla

C) Diri vaksinlə

D) Kimyəvi vaksinlə

E) Öldürülmüş vaksinlə

snsk.az

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

31) Sarı qızdırmanın profilaktikası üzrə əsas tədbir hansıdır?

A) Cari dezinfeksiya

B) Dezinseksiya

C) Dezinfeksiya

D) Deratizasiya

E) Faqoprofilaktika

Ədəbiyyat: Шляхов Э.Н. Практическая эпидемиология. Кишинев, 1983

32) Sapronozların törədicilərinin rezervuarı nədir?

A) Həşəratlar

B) İnsan

C) Torpaq

D) Qida məhsulları

E) İstiqanlı heyvanlar

snsk.az

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

33) «Həqiqi» sapronozlar hansılardır?

A) Legionelyozlar

B) Vərəm

C) Brusellyoz

D) Leptospirozlar

E) Malyariya

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

34) Xəstəxanadaxili infeksiyaların törədiciləri nə ola bilər?

A) Yalnız zoonozların törədiciləri

B) Yalnız şərti-patogen ştamlar

C) Yalnız sapronozların törədiciləri

D) Yalnız saprofitlər

E) Yalnız antroponozların törədiciləri

snsk.az

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

35) Xəstəxanadaxili infeksiyalarla xəstələnmənin artmasına nə təsir etmir?

A) Stasionarlarda sanitar-gigiyenik və əksepidemik rejimin pozulması

B) Çoxprofilli stasionarların tikintisi

C) Antibiotiklərin nəzarətsiz geniş tətbiqi

D) Əməliyyatlar üçün birdəfəlik sistemlərin işlədilməsi

E) «Hospital» ştamların əmələ gəlməsi

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

36) İnsanın legionelyozla yoluxması hansı yolla baş verir?

A) Qidada kifayət dərəcə termiki işlənməmiş hidrobiontların istifadəsi zamanı

B) Canlı keçiricilər vasitəsilə

C) Su vasitəsilə

D) Qansoran buğumayaqlıların dişləməsi zamanı

E) Hava-damcı yolu ilə

snsk.az

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

37) Hospitaldankənar legionelyozun (qeyri-texnogen) mövsümiliyi hansı dövrə düşür?

A) Yay-payız

B) Payız-qış

C) Qış-yaz

D) Qış

E) Yaz-yay

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

38) Legionelyozlar zamanı əsas profilaktik tədbir hansıdır?

A) Vaksinoprofilaktika

B) Antibiotikoprofilaktika

C) Təcili profilaktika

D) Suyun zərərsizləşdirilməsi

E) Kondensionerlərdə havanın müntəzəm təmizlənməsi

snsk.az

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

39) Skarlatinada immunoprofilaktika hansı preparatla aparılır?

A) Öldürülmüş vaksinlə

B) Kimyəvi vaksinlə

C) Anatoksinlə

D) Aparılmır

E) Diri vaksinlə

Ədəbiyyat: Ющук Н.Д. Эпидемиология. Москва, 1993

40) Trasnplasentar yolla ötürülən anticisimlər uşaqların əksəriyyətində nə vaxta qədər saxlanır?

A) 5 ilə qədər

B) 6 aylığına qədər

C) 1 yaşına qədər

D) 2 aylığına qədər

E) 4 aylığına qədər

snsk.az

Ədəbiyyat: Ющук Н.Д. Эпидемиология. Москва, 1993

41) Difteriyaya qarşı peyvəndin və digər peyvəndlərin aparılması arasındakı minimal müddət nə qədərdir ?

A) 5 ay

B) 2 ay

C) 3 ay

D) 2 həftə

E) 1 ay

Ədəbiyyat: Ющук Н.Д. Эпидемиология. Москва, 1993

42) Peyvənd kabinetində hansı vaksin preparatını eyni gündə digər peyvəndlərlə tətbiq etmək qadağan olunur?

A) Difteriya anatoksinini

B) Qızılca vaksinini

C) BCG

snsk.az

D) Poliomielit vaksinini

E) Parotit vaksinini

Ədəbiyyat: Шляхов Э.Н. Практическая эпидемиология. Кишинев, 1983

43) AGDT-vaksininin orqanizmə yeridilməsi üsulu necədir?

A) Dəriiçi

B) Dəriüstü

C) Dərialtı

D) Peroral

E) Əzələdaxili

Ədəbiyyat: Tağızadə T.Ə., Abuşov F.A., Ağayev İ.Ə. Epidemiologiyadan təjrübə məşğələlərinə dair metodiki tövsiyələr. Bakı, 1984.

44) Sifilisin spesifik profilaktikası necədir?

A) Diri vaksin

B) İşlənməmişdir

snsk.az

C) BCG

D) İşlənmişdir

E) Spesifik immun zərdab

Ədəbiyyat: Покровский В.И. Медицинская микробиология. Москва, 1998

45) Planlı vaksinasiya zamanı peyvəndlərin təşkili və aparılmasında kim iştirak edir?

A) Həkim-laborant

B) Bakterioloq

C) İnfeksionist

D) Epidemioloq

E) Dezinfeksionist

Ədəbiyyat: Tağızadə T.Ə., Abuşov F.A., Ağayev İ.Ə.Epidemiologiyadan təcrubə məşğələlərinə dair metodiki tövsiyələr. Bakı, 1984

46**) Göyöskürək törədicisinin yetişdirilməsində hansı mühitlərdən istifadə edilir?**

A) Levin

B) Müller

snsk.az

C) ödlü bulyon

D) Endo

E) Borde-Janqu

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

47**) Hansı heyvanlar Mycobacterium tuberculosis-ə həssasdır?**

A) siçovullar

B) itlər

C) dəniz donuzları

D) ağ siçanlar

E) dağsiçanı

Ədəbiyyat: Шляхов Э.Н. Практическая эпидемиология. Кишинев, 1983

48) Difteriya bakteriyalarının boyanması üçün istifadə edilən üsul hansıdır?

A) Sil-Nilsen

B) Oceşko

snsk.az

C) Burri-Gins

D) Neyser

E) Morozov

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

49) Mikrob hüceyrəsinin qişası necə aşkar olunur?

A) hüceyrənin plazmolizi üsulu ilə

B) Qram üsulu ilə

C) canlı şəkildə öyrənilməsi ilə

D) Felgen reaksiyası ilə

E) Neyser üsulu ilə

Ədəbiyyat: Покровский В.И. Медицинская микробиология. Москва, 1998

snsk.az

50) Toksoplazmoz diaqnozunu dəqiq təsdiq edən nədir?

A) Təkrar immunoloji müayinə zamanı anticisimlərin titrinin artması

B) Qanın əkilməsi

C) Rentgenoloji müayinə zamanı əzələlərdə kalsifikatların aşkar edilməsi

D) Gözün torlu qişasında çapıqlı dəyişikliklərin aşkar edilməsi

E) Nəcisin əkilməsi

Ədəbiyyat: Çobanov R.Ə. İnsan protozoozları. Bakı, 2006

51) Dəri leyşmaniozunun laborator diaqnostikasının əsas üsulları hansılardır?

A) Yaxmada və qalın qan damlasında törədicinin aşkar edilməsi

B) Onurğa beyni mayesinin mikroskopiyası zamanı törədicinin aşkar edilməsi

C) Qanın bakterioloji əkilməsi

D) Qabarcıq və yara punktatında törədicinin aşkar edilməsi

E) Vidal reaksiyası

Ədəbiyyat: Çobanov R.Ə. İnsan protozoozları. Bakı, 2006

smsk.az

52) “CoronaVac” (Sinovac) peyvəndi barəsində hansı ifadələr düzdür?

1. inaktivasiya olunmuş viruslardan alınıb

2. donmuş vəziyyətdə saxlanılır

3. -18°C-də saxlanılır

4. +2°C - +8°C saxlanılır

5. peptid antigenlərdən sintez olunur

6. attenuasiya olunmuş SARS-CoV-2 virusundan alınıb

7. SARS-CoV-2 virusunu (CZ02 Ştamı) Afrika yaşıl meymununun böyrək hüceyrəsinə (Vero hüceyrə) inokulyasiya edərək istehsal olunur

8. hər 0,5 ml dozada 600 SU inaktivləşdirilmiş SARS-CoV-2 virusu antigeni vardır

9. peyvəndin istehsalında SARS-CoV-2 virusunun mRNT istifadə olunur

A) 2, 5, 6, 8

B) 1, 4, 7, 8

C) 1, 3, 6, 5

D) 2, 4, 6, 8

E) 3, 5, 7, 9

Ədəbiyyat: İstinad: “CoronaVac” (Sinovac) peyvəndinin istifadə təlimatı

53) Stafilokok və qeyri-stafilokok (C.perfringens, B. cereus, P. vulgaris, P. mirabilis və s.) mənşəli qida toksikoinfeksiyalarının (QTİ) törədicilərinin mənbələri hansılardır?

snsk.az

A) Stafilokok mənşəli QTİ-lərdə stafilokok mənşəli furunkulyoz, dolama (panarisi), parodondoz və s. xəstəliyi olan insanlar və mastiti olan heyvanlar (inək, qoyun, at), qeyri-stafilokok mənşəli QTİ-lərdə isə insan və heyvan ifrazatları

B) Streptokok mənşəli impetiqo, dolama (panarisi), parodontoz xəstəliyi olan insanlar

C) B. anthracis mənşəli xəstəliyi olan insanlar və heyvanların ifrazatları

D) E. coli ilə törədilən mastiti olan heyvanlar (inək, qoyun) və onların ifrazatları

E) Stafilokok mənşəli QTİ-lərdə stafilokok mənşəli endokardit, qeyri-stafilokok mənşəli QTİ-lərdə isə heyvan ifrazatları və torpaqla çirklənmiş qida məhsulları

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 56.

54) Gənə ensefalitinin təbii ocağı olan ərazilərdə yerli əhalinin gəlmələrə nisbətən daha az dərəcədə xəstələnməsinin səbəbi nədir?

A) yerli əhalinin gənə ensefaliti virusuna qarşı anadangəlmə immunitetə sahib olması

B) yerli əhalinin daim gənə dişləməsi ilə az dozada törədicinin inokulyasiyası ilə immunitetin müəyyən səviyyədə saxlanılması

C) yerli əhalinin gənə ensefaliti virusunun daşıyıcıları olması

D) gənə ensefaliti virusuna yalnız heyvanlarda rast gəlinməsi

E) yerli əhalinin gənə ensefaliti virusuna qarşı areaktiv olması

smsk.az

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 580.

55) Bruselyozun hansı mexanizmlərlə ötürülməsi mümkündür?

A) Yalnız fekal-oral mexanizmlə

B) Fekal-oral, hava-damcı (toz), təmas və şaquli mexanizmlərlə

C) Yalnız şaquli mexanizmlə

D) Transmissiv, fekal-oral və şaquli mexanizmlərlə

E) Hava-damcı (toz), fekal-oral, təmas, transmissiv və şaquli mexanizmlərlə

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 224.

56) Bruselyoza qarşı vaksinasiya və revaksinasiya necə aparılır?

A) Vaksinasiya və revaksinasiya hər biri bir dəfə olmaqla

B) Vaksinasiya iki dəfə, iki həftəlik intervalla, revaksinasiya hər iki ildən bir

C) Vaksinasiya iki dəfə, revaksinasiyaya ehtiyac yoxdur

D) Vaksinasiya üç dəfə, bir həftəlik intervalla, revaksinasiya ildə bir dəfə

E) Vaksinasiya bir dəfə, revaksinasiya hər il

snsk.az

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова, Москва, 2008, стр. 232.

57) Ebola xəstəsi ilə təmasda olmuş şəxslər hansı şəraitdə və neçə gün müşahidə altında saxlanılırlar?

A) Ev şəraitində 30 gün ərzində

B) Sovrulma tipli havalandırma sistemi qapadılmış hermetik otaqda 40 gün ərzində

C) Sovrulma tipli havalandırma sistemi qapadılmış hermetik otaqda 21 gün ərzində

D) Xəstəxana şəraitində 25 gün ərzində

E) Sovrulma tipli havalandırma olan otaqda 10 gün ərzində

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 601.

58) Tibbi dezinseksiyada repellentlər hansı məqsədlə istifadə olunur?

A) yumurta qoyma yerlərində həşəratların məhv edilməsi

B) yaşayış yerlərindən kənarda gənələrin məhv edilməsi

C) buğumayaqlıların insandan hürküdülməsi

D) insektisidlərin işlədildiyi yerlərə həşəratların cəlb edilməsi

E) açıq sahələrdə uçan həşəratların qırılması

smsk.az

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В.. “Эпидемиология”. Учебник в 2-х томах, том I, стр. 286-287.

59) İfadələrdən hansı profilaktik dezinfeksiyaya aid deyil?

A) əllərin sistematik yuyulması, südün pasterizasiyası ona aiddir

B) yoluxucu xəstəliklərin olub-olmamasından asılı olmayaraq, daim aparılır

C) icraçılar poliklinikaların tibb işçiləridir

D) qida istehsalı müəssisələrində aparılır

E) su qurğularında aparılır

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В. “Эпидемиология”. Учебник в 2-х томах, том I, стр. 236.

60) Qarın yatalağında inkubasiya dövrünün müddəti neçə gündür?

A) 3-8

B) 28 və daha çox

C) 14-28

D) 7-25

E) 1-3

snsk.az

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 30.

61) Tsutsuqamuşi qızdırmasının törədicisi nədir və bu xəstəlik hansı növ xəstəliklərə aiddir?

A) Rikketsiyalar, təbii ocaqlı zoonoz

B) Viruslar, sapronoz

C) Xlamidiyalar, zoonoz

D) Göbələklər, antroponoz

E) Salmonellalar, zooantroponoz

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 254-255.

62) Göyöskürək xəstəsi xəstəliyin hansı dövründə ətrafdakılar üçün daha çox təhlükəlidir?

A) Sağalma dövründə

B) Spazmlı öskürək və sağalma dövründə

C) İnkubasiya dövrünün sonunda

D) Kataral dövrdə

smsk.az

E) Spazmlı öskürək dövründə

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В. “Эпидемиология”. Учебник в 2-х томах, том I, стр. 550.

63) Mütəşəkkil uşaq kollektivlərində skarlatina xəstəsi ilə təmasda olmuş qruplarda müşahidə tədbirlərinin keçirilmə müddəti neçə gündür?

A) 14

B) 21

C) 10

D) 7

E) 12

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр.94.

64) Toksoplazmoz diaqnozunu təsdiq edən nədir?

A) orqanizmin bioloji mayelərində və toxumalarında toksoplazmaların tapılması

B) gözün torlu qişasında çapıqlı dəyişikliklərin aşkar edilməsi

C) IgA anticisimlərinin təyin edilməsi

D) rentgenoloji müayinə zamanı əzələlərdə kalsifikatların aşkar edilməsi

snsk.az

E) qanın əkilməsi

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. “Epidemiologiya”. səh.680.

65) Geohelmintlərin fərqləndirici xüsusiyyətləri hansıdır?

A) törədiciləri düz yolla, aralıq sahibsiz inkişaf edir, yoluxmuş insan başqaları üçün bilavasitə təmas yolu ilə yoluxma mənbəyi deyildir

B) törədiciləri insan üçün bilavasitə yoluxucu olan yetişmiş yumurta xaric edir

C) yoluxma xəstə heyvanlarla (əsas sahib) təmas zamanı yumurtaları udmaqla baş verir

D) insanın bu helmintlərə yoluxması orqanizmdə sürfə olan ara sahibdən qida kimi istifadə etdikdə baş verir

E) törədiciləri bir və ya bir neçə ara sahibin iştirakı ilə inkişaf edir

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. “Epidemiologiya”. səh. 595.

66) Kontagioz helmintozlar hansılardır?

A) Askaridoz, strongiloidoz

B) Opistorxoz, şistosomoz

C) Teniarinxoz, fassiolyoz

D) Enterobioz, himenolepidoz

snsk.az

E) Drakunkulyoz, trixinellyoz

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. “Epidemiologiya”. səh.596-598.

67) Sadalananlardan hansı helmintlərin orqanizmdən xaric olma yollarına aiddir?

A) nəcislə, sidik və qansoran həşəratlar vasitəsilə

B) respirator yolla

C) selik və nəcis ifrazı ilə

D) ağız suyu vəziləri və öd ifrazı ilə

E) tər və sidik ifrazı ilə

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. “Epidemiologiya”. səh.601.

68) Leyşmaniozlarda yoluxma mexanizmi və yolları hansılardır?

A) parenteral yol ilə

B) fekal-oral mexanizm, su yolu ilə

C) transmissiv mexanizm, dişləmə ilə

D) şaquli mexanizm ilə

E) hava-damcı mexanizmi, hava-toz yolu ilə

snsk.az

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. “Epidemiologiya”. səh. 665.

69) Bunlardan hansı vəbanın dinamikası üçün xarakterikdir?

A) Endemik ocaqlarda bütün il boyu qeydə alınma və ilin daha isti dövrü ərzində xəstələnmə hallarının yüksəlişi; qismən və ya tamamilə vəbadan azad ərazilərdə isə yay-payız mövsümündə kəskin bağırsaq infeksiyalarının yüksəlişi dövründə xəstələnmə hallarının qeydə alınmaması və ya nadir hallarda qeydə alınması

B) Endemik ocaqlarda bütün il boyu hadisələrin qeydə alınması və ilin daha isti dövrü ərzində xəstələnmə hallarının yüksəlişi; qismən və ya tamamilə vəbadan azad ərazilərdə isə yay-payız mövsümündə kəskin bağırsaq infeksiyalarının yüksəlişi dövründə xəstələnmə hallarının qeydə alınması

C) Endemik ocaqlarda yalnız ilin daha isti dövrü ərzində xəstələnmə hallarının qeydə alınması və yüksəlişi; qismən və ya tamamilə vəbadan azad ərazilərdə isə yay-payız mövsümündə xəstələnmə hallarının qeyri-müntəzəm şəkildə qeydə alınması

D) Endemik ocaqlarda və vəbadan azad ərazilərdə yalnız ilin isti vaxtlarında eyni intensivliklə hadisələrin qeydə alınması

E) Endemik ocaqlarda ilin daha isti dövrü ərzində xəstələnmə hallarının qeydə alınması, vəbadan azad ərazilərdə isə mövsümdən asılı olmayaraq xəstəlik hadisələrinin sporadik qeydə alınması

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х.. «Эпидемиология». 2006, стр. 220.

snsk.az

70) Passiv immunizasiyada əzələdaxili yeridilən anticisimlərin qanda maksimal səviyyəsi neçə müddətdən sonra əmələ gəlir?

A) 1-1,5 saat

B) 12-24 saat

C) dərhal

D) 6-12 saat

E) 2-3 saat

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В.. “Эпидемиология”. 2013. Учебник в 2-х томах, том 1, стр.331.

71) Respirator və həzm sisteminin selikli qişalarından ağır spontan qanaxma ilə müşahidə edilən, letallığı 90% olan və törədicisi filoviridae ailəsinə mənsub xəstəlik hansıdır?

A) Gənə ensefaliti

B) Ebola

C) Qrip

D) Quduzluq

E) Qızılça

Ədəbiyyat: “Руководство по инфекционным болезням”. Под редакцией В.М.Семенова. Москва, 2008, стр. 599-600.

snsk.az

72) Nümunələrdən hansı COVID-19 simptomatik xəstələrdən götürülən nümunə növlərinə aid deyil?

A) bronxoalveolyar lavaj

B) bəlğəm

C) öd və sinovial maye

D) nazofaringeal və ya orofaringeal yaxma

E) endotraxeal aspirat, nazofaringeal aspirat və ya nazal yuyuntu məhlulu

Ədəbiyyat: COVID-19 Tibb işçiləri üçün müvəqqəti rəhbərlik. 2020, səh.12.

73) Zonne dizenteriyası ilə ən yüksək xəstələnmə göstəriciləri hansı yaş qruplarında qeyd olunur?

A) 4-6 yaş

B) 7-10 yaş

C) 3 yaşa qədər

D) 10 yaşdan yuxarı

E) 50 yaşdan yuxarı

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В.. “Эпидемиология”. 2013. Учебник в 2-х томах, том 1, стр. 454.

74) Şigellyozlar üçün hansı mövsümilik xarakterikdir?

A) yaz-yay

snsk.az

B) yaz-payız

C) payız-qış

D) yay-qış

E) yay-payız

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В.Эпидемиология, 2013: Учебник в 2 томах/ tom 1 səh 455

75) E. coli-nin hansı ştamları "səyahətçilərin xəstəliyi"nin etioloji amili sayılır?

A) enteroinvaziv

B) enterohemorragik

C) enteropatogen

D) enterotoksigen

E) enteroadgeziv

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В.. "Эпидемиология". Учебник в 2-х томах, том 1, стр. 462.

76) Sadalananlardan hansı E. coli-nin O157:H7 ştamları ilə törədilən eşerixiozlarda ilk növbədə yoluxma amillərinə aiddir?

A) çirkli əllər

B) meyvə/ tərəvəz

C) yumurta

snsk.az

D) çiy və ya yaxşı termik emal edilməyən ət və süd məhsulları

E) su

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В. “Эпидемиология”. Учебник в 2-х томах, том 1, стр. 460-461.

77) Sadalanan faktorlardan hansı vəbanın El-Tor vibrionunun yaşama müddətinə müsbət təsir göstərir?

A) günəş şüasının təsiri

B) mədənin turş möhtəviyyatı

C) duz və sulfat turşularının 1:10 000 nisbəti

D) saprofit mikrofloranın antaqonistik təsiri

E) suyun donması, su hövzələrinin məişət və sənaye tullantıları ilə çirkləndirilməsi

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. “Epidemiologiya”. səh. 409-410.

78) Difteriya xəstəliyində törədicigəzdirmə çox vaxt hansı yaşlı uşaqlar arasında qeyd edilir?

A) 4 yaşına qədər

B) 15 yaşdan yuxarı

C) 12-15 yaşında

D) 4-8 yaşında

E) 8-12 yaşında

snsk.az

Ədəbiyyat: İ.Ə.Ağayev ,X.N. Xələfli ,F.Ş.Tağıyeva Epidemiologiya . səh. 356

79) Qarışıq B və D etiologiyalı kəskin hepatitin inkubasiya dövrü nə qədər davam edir?

A) 7 aydan 12 aya qədər

B) 2 həftədən 4 həftəyə qədər

C) 5 həftədən 6 həftəyə qədər

D) 12 aydan çox

E) 6 həftədən 6 aya qədər

Ədəbiyyat: Ağayev İ.Ə., Xələfli X.N., Tağıyeva F.Ş. "Epidemiologiya". səh. 482-484.

80) Peyvəndə qarşı reaksiyaların rastgəlmə tezliyi neçə faizdən yüksək olmamalıdır?

A) 2%

B) 10%

C) 7%

D) 4%

E) 1%

Ədəbiyyat: Брико Н.И., Зуева Л.П., Покровский В.И., Сергиев В.П., Шкарин В.В.. "Эпидемиология". 2013. Учебник в 2-х томах, том 1. стр.363.

snsk.az

81) Qripdən sonra yaranmış immunitetin davametmə müddəti nə qədərdir?

A) 6 il

B) 1 ay

C) 2 il

D) 2 ay

E) 10 il

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

82) Poliomielit vaksini hansı formada buraxılır?

A) şəffaf maye

B) toz

C) tutqun maye

D) draje

E) kapsula

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

83) Uşağa poliomielit vaksinini nə vaxt vermək lazımdır?

snsk.az

A) yemək vaxtı

B) yeməkdən sonra

C) fərqi yoxdur

D) yeməkdən əvvəl

E) yeməkdən 1 saat sonra

Ədəbiyyat: Шляхов Э.Н. Практическая эпидемиология. Кишинев, 1983

84) Yoluxma mexanizminə görə İİV-infeksiyası hansı infeksiyalar qrupuna aiddir?

A) təmas

B) hava-toz

C) fekal-oral

D) hava-damcı

E) transmissiv

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

85) İİV-infeksiyasının hansı xüsusiyyətlərilə bağlı əraziyə uyğunlaşması imkanı var?

snsk.az

A) demoqrafik göstəriciləri ilə

B) yoxdur

C) mövsümiliklə

D) əhalinin yaş strukturu ilə

E) iqlim xüsusiyyətləri ilə

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

86) Hansı klinik mərhələdə göyöskürək daha yoluxdurucudur?

A) paroksizmal

B) sağalma

C) kataral

D) regenerasiya

E) inkubasiya

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

87) Xlorlu əhəngin işçi məhlulunun aktivliyinin ən maksimal saxlanma müddəti nə qədərdir?

snsk.az

A) 2-3 gün ərzində

B) hazırlandıqdan sonra 1 saat ərzində

C) iş günü ərzində

D) 2 həftə ərzində

E) 10 gün ərzində

Ədəbiyyat: Шляхов Э.Н. Практическая эпидемиология. Кишинев, 1983

88) Virus infeksiyası zamanı hüceyrənin daxilində yaranmış elementar cisimciklər nəyi təmsil edirlər?

A) RNT-ni

B) Xromosomun fraqmentlərini

C) Həqiqi virus cisimciklərini

D) Volyutin dənəciklərini

E) Piy əlavələrini

Ədəbiyyat: Зуева Л.П., Яфаев Р.Х. Эпидемиология. Санкт-Петербург, 2006

89) Hansı xəstəlik virus infeksiyalarına aiddir?

snsk.az

A) Qarın yatalagı

B) Vəba

C) Qızılca

D) Vərəm

E) Səpgili yatalaq

Ədəbiyyat: Tağızadə T.Ə., Abuşov F.A., Ağayev İ.Ə.Epidemiologiyadan təcrubə məşğələlərinə dair metodiki tövsiyələr. Bakı, 1984

90) Arboviruslarla yoluxma hansı yolla baş verir?

A) Hava-damcı

B) Kontaminasiya

C) Transmissiv

D) Alimentar

E) Transplasentar

Ədəbiyyat: Tağızadə T.Ə., Abuşov F.A., Ağayev İ.Ə.Epidemiologiyadan təcrubə məşğələlərinə dair metodiki tövsiyələr. Bakı, 1984

91) DNT tərkibli viruslar hansılardır?

A) Retroviruslar

snsk.az

B) Arboviruslar

C) Herpesviruslar

D) Pikornaviruslar

E) Koronaviruslar

Ədəbiyyat: Букринская А.Г. Вирусология. Москва, 1986

92) Təbiətdə rabdovirusların rezervuarlarını göstərin?

A) itlər, canavarlar, çaqqallar, tülkülər, pişiklər

B) insan, iribuynuzlu heyvanlar

C) atlar, iribuynuzlu heyvanlar

D) yarasalar, atlar, insan, canavarlar

E) quşlar, atlar, çaqqallar

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

93) İnsan orqanizminə rabdoviruslar necə daxil olur?

A) xəstə heyvanların nəcisi ilə

B) su ilə

C) xəstə heyvanların qanı ilə

snsk.az

D) xəstə heyvanların tüpürcəyi ilə

E) ağcaqanadların dişləməsi yolu ilə

Dərəcə: 1 Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

94) Quduzluğun spesifik profilaktikası üçün hansı vaksin istifadə olunur?

A) STİ

B) antirabik vaksin

C) Solk vaksini

D) BCG

E) Seybin vaksini

Ədəbiyyat: Tağızadə T.Ə., Abuşov F.A., Ağayev İ.Ə.Epidemiologiyadan təcrubə məşğələlərinə dair metodiki tövsiyələr. Bakı, 1984

95) Hansı manipulyasiyalar zamanı tibb işçiləri İİV-infeksiyası ilə yoluxma riskinə məruz qala bilərlər?

A) sitoskopiya

B) rentgenoqrafiya

C) rektoromanoskopiya

D) bronxoskopiya

snsk.az

E) dişlərin çıxarılması

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

96) Virusları nə xarakterizə edir?

A) hüceyrəvi quruluşa malikdirlər

B) tumurcuqlanma ilə çoxalır

C) miseliləri vardır

D) obliqat hüceyrədaxili parazitlər sayılırlar

E) qidalı mühitlərdə böyüyürlər

Ədəbiyyat: Покровский В.И. Медицинская микробиология. Москва, 1998

97) Qanla təmasda olan tibb işçilərinin HBs-Ag (avstraliya antigeni) görə müayinəsi hansı tezliklə aparılmalıdır?

A) ayda 1 dəfə

B) hər rüb

C) ildə 1 dəfə

D) yalnız işə qəbul edildikdə müayinə olunurlar

E) yarım ildə 1 dəfə

snsk.az

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

98) Ağız boşluğunu tez-tez zədələyən virus hansıdır?

A) arboviruslar

B) qrip virusu

C) qızılca virusu

D) hepatit C virusu

E) herpes virusu 1

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

99) Kəmərləyici dəmrov (herpes zoster) hansı xəstəliyi keçirmiş şəxslərdə inkişaf edir?

A) infeksion mononukleoz

B) genital herpes

C) sitomeqalovirus infeksiyası

D) rotavirus infeksiyası

E) su çiçəyi

snsk.az

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

100) Kəskin B virus hepatitli (VHB-nin) xəstələrlə təmasda olan şəxslər hansı hallarda qanverməkdən azad edilirlər?

A) azad olunmurlar

B) donorların qanını yüksək həssas metodlarla müayinə etmək imkanı olmadıqda

C) ömürlük

D) VH “B” xəstəsinin hospitalizasiyasından sonra 6 ay ərzində

E) VH “B” xəstələri ilə təmas başa çatana qədər qan verməkdən azad edilirlər

Ədəbiyyat: Покровский В.И., Пак С.Г., Брико Н.И., Данилкин Б.К. Инфекционные болезни и эпидемиология. Москва, 2004

snsk.az